**UOT:** 330.341.4: 339.13: 330.341.44: 338.33: 334.012; 334.7
**JEL:** M 13

**NƏCƏFOVA T. R.**
i.f.d., AMEA İqtisadiyyat İnstitutu

# AZƏRBAYCAN RESPUBLİKASINDA BAZAR İQTİSADİYYATI ŞƏRAİTİNDƏ KİÇİK SAHİBKARLIĞIN İNKİŞAFINDA DÖVLƏT DƏSTƏYİNİN GÜCLƏNDİRİLMƏSİ MƏSƏLƏLƏRİ

**Xülasə**

Məqalədə, Azərbaycanda sahibkarlığın inkişafının müasir vəziyyəti, sahibkarlığa dövlət dəstəyinin iqtisadi mexanizmləri və əsas istiqamətləri tədqiq edilərək, qiymətləndirilmişdir. Eyni zamanda ölkədə sahibkarlığın inkişafı məqsədilə biznes mühitinin daim yaxşılaşdırı lması, yerli və xarici investisiyaların, müasir texnologiyaların cəlb edilməsi və bu yolla yüksək keyfiyyətli, rəqabət qabiliyyətli məhsulların istehsal etdirilməsi məsələləri araşdırılmış, Azərbaycanda kiçik sahibkarlıq sahəsində baş verən proseslər tədqiq edilərək, qiymətləndirilmişdir.

**Açar sözlər:** *sahibkarlıq, iqtisadi siyasət, investisiya, inkişaf istiqamətləri, rəqabət, bazar iqtisadiyyatı.*

## GİRİŞ

Bazar münasibətləri şəraitində sosial-iqtisadi inkişafın sürətlənməsi və əhalinin həyat səviyyəsinin yaxşılaşdırılması, milli iqtisadiyyatın bütün sahələrinin sabit inkisafı ölkəni yüksək templərlə inkişaf edən dövlətlərdən birinə çevirmişdir. Ölkədə uğurla davam etdirilən sosial-iqtisadi inkişaf strategiyasının prioritetlərindən biri - sahibkarlığın inkişafıdır. Belə ki, əlverişli sahibkarlıq mühitinin formalaşdırılmasına və inkişafına, bu sektorun tənzimlənməsinə, dəstəklənməsinə və müdafiəsinə imkan verən bir sıra mühüm normativ-hüquqi aktlar qəbul edilmişdir. Əsas məqsəd, ölkədə ardıcıl olaraq dövlət-sahibkar münasibətlərinin inkişaf etdirilməsi, biznes mühitinə dair qanunvericiliyin və inzibati prosedurların təkmilləşdirilməsi, sahibkarlığa dövlət dəstəyi mexanizmlərinin genişləndirilməsi, maarifləndirmə, sahibkarlığın işgüzar əlaqələrinin inkişafı və müxtəlif növ xidmətlərin göstərilməsi kimi kompleks tədbirlərin həyata keçirilməsidir.

Sahibkarlığın inkişafı, ilk növbədə, onun daxili və xarici mənbələr hesabına investisiya təminatı ilə bağlıdır. Sahibkarlıq fəaliyyətinin əsas istiqamətlərindən biri sayılan kadr potensialından düzgün istifadə edilməsi biznes fəaliyyətinin inkişafına və istehsalın gəlirliliyinə müsbət təsir göstərir. Sahibkarlıq fəaliyyəti, ilk növbədə, sahibkarın şəxsi keyfiyyətləri, işə yaradıcı münasibəti və innovasiyalarla fərqlənir. Sahibkar qərar qəbul etdikdə həmişə yüksək səmərə arxasınca qaçmır, adətən daha münasib variantı seçir.

Ölkə iqtisadiyyatının inkişafında, rəqabətqabiliyyətli ixracat yönümlü istehsal sahələrinin formalaşmasında, iqtisadiyyatın innovasiya yönümlüyünün gücləndirilməsində kiçik biznes sektorunun rolunun artırılması nəzərdə tutulur. Son illərdə sahibkarlara dövlət maliyyə köməyi sistemi inkişaf etdirilərək, investisiya layihələrinin güzəştli şərtlərlə maliyyələşdirilməsi mexanizmi təkmilləşdirilmişdir. Sahibkarlığa Kömək Fondunun vəsaitlərindən istifadə qaydasının təkmilləşdirilməsi istiqamətində xüsusi fərman imzalanmış və ixracyönümlü məhsulların stimullaşdırılması üçün sahibkarlara verilən vəsaitin məbləği artırılmışdır. Aparılan sosial siyasət nəticəsində əhalinin həssas qruplarına, o cümlədən, gənclərə, qadınlara, məcburi köçkünlərə kömək məqsədilə güzəştli kredit vəsaiti ayrılıb. Bununla yanaşı, kiçik və orta sahibkarlığa maliyyə köməyi mexanizmlərinin formalaşması, sahibkarlar üçün vergi yükünün azaldılması, vergi sisteminin stimullaşdırıcı rolunun gücləndirilməsi istiqamətində zəruri addımlar atılmışdır. Ölkədə kiçik sahibkarlığın inkişafı ilə əlaqədar Strateji Yol Xəritəsində müəyyənləşdirilən strateji məqsədlərə nail olmaq və müvafiq imkanlardan maksimum istifadə ön plana çəkilməlidir.

### Azərbaycan Respublikasında kiçik və orta sahibkarlığın inkişafı sahəsində dövlət siyasətinin prioritet istiqamətləri.

Müasir qlobal inteqrasiya dövründə Azərbaycanın qarşısında duran ən mühüm vəzifə - qeyri-neft sektoru sahələrinin rəqabətqabiliyyətliyini təmin edən amilləri formalaşdırmaq və onu

dünya səviyyəsinə yüksəltməkdir. Bu gün Azərbaycan beynəlxalq miqyasda öz iqtisadi tərəqqisi ilə inkişafın milli modelini formalaşdırıb. Bu baxımdan, ölkə iqtisadiyyatının diversifikasiyası, qeyri-neft sahələrinin və regionların inkişafı sürətlənmiş, strateji valyuta ehtiyatlarının səmərəli idarə edilməsi və milli valyutanın sabitliyi təmin olunmuş, sahibkarlığa dövlət dəstəyi gücləndirilmiş, özəl bölmənin fəaliyyəti üçün əlverişli imkan yaradılmış, azad rəqabət mühiti təmin edilmiş, daha əlverişli investisiya mühitinin yaradılması istiqamətində tədbirlər davam etdirilmiş və əhalinin sosial rifahı daha da yaxşılaşmışdır.

Dünyada biznes mühitinin qiymətləndirilməsi istiqamətində ənənəvi olaraq hər il dərc olunan hesabatlarda Azərbaycanda reallaşdırılan iqtisadi islahatlar daim diqqət mərkəzində saxlanılır. Prezident İlham Əliyev tərəfindən aparılan kompleks iqtisadi islahatlar sahəsində sahibkarlıq fəaliyyətinin optimal gəlirliliyini təmin edəcək və rəqabət prinsiplərinə əsaslanacaq biznes mühitini yaratmaq, ölkənin investisiya cəlbediciliyini artırmaq, beynəlxalq reytinqlərdə Azərbaycanın mövqeyini daha da yaxşılaşdırmaq üçün qanunvericiliyin və inzibatçılığın təkmilləşdirilməsi nəzərə alınmışdır.

Azərbaycan iqtisadiyyatının yeni inkişaf modeli iqtisadiyyatın qeyri-neft sektoruna transformasiya olunmasını nəzərdə tutur. Neft gəlirlərinin səmərəli idarə edilməsi, ölkə iqtisadiyyatının şaxələndirilməsi və qeyri-neft sektorunun tərəqqisi, regionların tarazlı inkişafı, özəl sektorun inkişaf etdirilməsi və sahibkarlığa dövlət dəstəyi xüsusi önəm kəsb edir.

Qeyri-neft məhsullarının ixracının stimullaşdırılması üçün 2016-cı ildə əlavə sərəncam verilir. Burada xarici ölkələrə ixrac missiyaları təşkil etmək, xarici bazarları araşdırmaq və marketinq fəaliyyəti barədə sənəd imzalanıb. Bu sənədlə isə, 2016-2020-ci illər ərzində Azərbaycanda istehsal olunan qeyri-neft məhsullarının ixracı ilə məşğul şəxslərə dövlət büdcəsindən xüsusi ixrac təşviqi rüsumunun ödənilməsi qaydası müəyyən edilib. Məqsəd isə, iqtisadiyyatın qeyri-neft sektoruna investisiya cəlb etmək idi. Xarici investisiyaların ölkə iqtisadiyyatına cəlb edilməsi Azərbaycan dövlətinin müəyyən etdiyi iqtisadi inkişaf strategiyasının mühüm tərkib hissəsidir. Bu baxımdan, siyasi sabitlik və iqtisadi inkişaf əvvəlki illərdə olduğu kimi, 2014-2017-ci illərdə də xarici dövlətlərin Azərbaycan iqtisadiyyatına ortamüddətli və uzunmüddətli sərmayə qoymaq üçün marağını daha da artırır. Xarici investorların yerli məhsul və xidmətlərə daha çox tələbatının yaradılması üçün mexanizmlər qurulacaqdır. Geniş çeşidli və əlverişli maliyyə xidmətləri təklif edən sabit və dərin maliyyə sistemi formalaşdırılacaq, bu da iqtisadiyyatın və ev təsərrüfatlarının müvafiq ehtiyaclarını ödəməklə, iqtisadi inkişafa töhfə verəcəkdir.

Hesablamalara görə, 2020-ci ilədək nəzərdə tutulmuş prioritetlərin yerinə yetirilməsi üçün iqtisadiyyata təxminən 27 milyard manat investisiya qoyuluşunun tələb ediləcəyi proqnozlaşdırılır. Bu məbləğ bütün sektorlar üzrə strateji yol xəritələri çərçivəsində tələb olunan cəmi vəsaiti əks etdirir. Nəzərdə tutulan vəsait bütün növ dövlət və özəl (yerli və xarici) mənbələr hesabına təmin ediləcəkdir. 2025-ci il perspektivində Azərbaycana sərmayə qoymuş investorların daha da möhkəmlənməsi və yeni birbaşa xarici investisiyaların cəlb edilməsi təmin olunacaqdır. Xüsusilə rəqabət üstünlüyü olan konkret investisiya layihələri maraqlı xarici sərmayədarlara təqdim olunacaqdır.

Xarici və daxili investorlar ancaq sabit olan ölkələrdə investisiyalar qoyurlar. Azərbaycana qoyulan sərmayə də artıq çoxşaxəli sərmayədir. Ölkədə iqtisadi fəallığı gücləndirmək, iqtisadiyyatda dövrün tələbinə uyğun olaraq zəruri struktur dəyişiklikləri aparmaq, sağlam rəqabət mühiti formalaşdırmaq və milli iqtisadiyyatın səmərəliliyini yüksəltmək məqsədilə, dövlət əmlakının özəlləşdirilməsinin sürətləndirilməsi iqtisadi siyasətin mühüm istiqamətlərindən biridir.

Strateji Yol Xəritəsi çərçivəsində yaxşı idarəetmə əsasında makroiqtisadi sabitliyi təmin etmək, iqtisadiyyatın strukturunu təkmilləşdirmək, məşğulluğu artırmaq, tarazlaşdırılmış regional inkişafı təmin etmək, biznes mühitini yaxşılaşdırmaq və özəl sektorun iştirakçılığını gücləndirmək planlaşdırılır. Strateji Yol Xəritəsi 2025-ci ilə qədər ÜDM-də 3 faizdən çox orta illik real artım və əlavə olaraq 450 mindən çox yeni iş yerinin yaradılmasını nəzərdə tutur. Bu iş yerlərinin yaradılması 3 amilin təsiri nəticəsində mümkün olacaqdır:

1) ümumi iqtisadi mühitin yaxşılaşması nəticəsində iqtisadi artım sürətinin yüksəlməsi

2) Strateji Yol Xəritəsi çərçivəsində görülən tədbirlər

3) digər əlavə tədbirlər

2025-ci ildə makroiqtisadi sabitlik, xüsusilə fiskal dayanıqlılıq, əlverişli biznes mühiti, inkişaf etmiş infrastruktur, xarici bazarlara sərbəst çıxış və xarici investisiyaların cəlb edilməsi nəticəsində Azərbaycan iqtisadiyyatı daha davamlı olacaq və ölkədə əmək məhsuldarlığı, iqtisadi rifah Şərqi Avropa ölkələrinin müvafiq göstəricisinə çatdırılacaqdır. Makroiqtisadi sabitlik həm yerli, həm də xarici özəl sektor nümayəndələrinin investisiya qoyuluşlarının stimullaşdırılması üçün zəmin olacaqdır. Texnologiya transferi və biliyin kommersiyalaşdırılmasının genişləndirilməsi investisiya qoyuluşunun səmərəliliyini artıracaqdır. İqtisadiyyatın həm regional, həm də sahələrarası strukturunun optimallığı artacaq, bu da tarazlı və dayanıqlı inkişafı təmin edəcəkdir. Xüsusilə, Azərbaycanda regional inkişaf mərkəzlərinin formalaşması bölgələrdə iqtisadiyyatın rəqabətqabiliyyətli sahələrində ixtisaslaşmanın dərinləşdirilməsi hesabına ümumi iqtisadi inkişafı təmin edəcəkdir. Azərbaycan beynəlxalq əhəmiyyətə malik sənaye və xidmət mərkəzinə çevriləcəkdir.

2017-ci ildə də ölkəmiz dünyanın uğurla inkişaf edən sabit dövlətlərindən biri olmuşdur. Məhz bunun nəticəsidir ki, Davos Ümumdünya İqtisadi Forumunun "2017-2018 Qlobal Rəqabətlilik Hesabatı"nda Azərbaycan iqtisadiyyatı rəqabətqabiliyyətliliyinə görə 2017-ci ildə iki pillə irəliləyərək, 137 ölkə arasında 35-ci yerdə qərarlaşmışdır.

Davos Ümumdünya İqtisadi Forumunun "2017-2018 Qlobal Rəqabətlilik Hesabatı"nda Azərbaycanın mövqeyi 12 indikatordan - aşağıdakı doqquz indikator üzrə yaxşılaşıb: institutlar (15 pillə irəliləyərək 33-cü yer), infrastruktur (4 pillə irəliləyərək 51-ci yer), səhiyyə və ibtidai təhsil (1 pillə irəliləyərək 74-cü yer), ali təhsil və təlim (10 pillə irəliləyərək 68-ci yer), əmtəə bazarının səmərəliliyi (19 pillə irəliləyərək 31-ci yer), əmək bazarının səmərəliliyi (9 pillə irəliləyərək 17-ci yer), maliyyə bazarının inkişafı (18 pillə irəliləyərək 79-cu yer), biznesin mürəkkəbliyi (20 pillə irəliləyərək 40-cı yer) və innovasiya (11 pillə irəliləyərək 33-cü yer). Beləliklə, Azərbaycan ən böyük irəliləyişi biznesin mürəkkəbliyi kateqoriyası üzrə əldə edib – 20 pillə. Bu sahədə, xüsusilə, klaster inkişafı və rəqabət üstünlüyü meyarlarında daha çox irəliləyiş əldə edilib. Ölkə bu göstəriciyə görə İsrail, İrlandiya, Belçika, Avstriya və Estoniya kimi rəqibləri üstələyib. 2017-ci ildə ölkə iqtisadiyyatına 14,6 milyard dollar sərmayə qoyulub.

Təkcə 2017-2018-ci illərdə Azərbaycan iqtisadiyyatına 30 milyard ABŞ dolları sərmayə yatırılacaq. Bu, ölkənin ÜDM-nin 80 faizindən çoxdur. Azərbaycanda sabitliyin bir vacib təzahürü də ölkəyə gələn turistlərin sayıdır, 2017-ci ildə 500 min nəfər artaraq, 2,7 milyon nəfərə - rekord həddə çatmasıdır. Azərbaycan nəinki MDB, eləcə də region ölkələri arasında ilk üçlüyə daxil olan yeganə ölkədir. Azərbaycan 4,69 balla 3-cü yerdə qərarlaşıb. Müqayisə üçün qeyd edək ki, MDB-də Azərbaycana ən yaxın ölkə Qazaxıstandır və bu ölkə 15-ci yerdədir. Türkiyə 16-cı, Rusiya 19-cu, Gürcüstan 32-ci yerdə, Ermənistan isə 45-ci yerdə qərarlaşıb.

Davos Ümumdünya İqtisadi Forumunda səsləndirilən fikirlər onu göstərir ki, Azərbaycan uğurla inkişaf edir, siyasi və iqtisadi islahatların paralel olaraq davam etdirilməsi bütün sahələrdə mühüm nailiyyətlərin əldə olunmasını təmin edir. 2017-2018-ci illər ərzində Azərbaycan əhalisinin hər nəfərinə düşən ÜDM 4000 dollar təşkil edəcək. Analoji göstərici Rusiyada 9000 dollardan, Qazaxıstanda 8000 dollardan, Belarusda 6000 dollardan, Ukraynada 2000 dollardan çox olacaq. Azərbaycan iqtisadiyyatının Qazaxıstanla müqayisədə 3,5 dəfə kiçik, ehtiyatlarının isə 2 dəfə az olması səbəbindən, aşağı neft qiymətlərinə də daha həssas olduğu bildirilir. Həmçinin, Qazaxıstanın Azərbaycana nisbətən biznes mühitinin inkişafı və struktur islahatlarının aparılmasında daha çox addım atdığı qeyd olunur. Agentlik müqayisə üçün bildirir ki, əgər Azərbaycanın 2015-ci ildə neft-qaz ixracı məcmu ixracın 89%-ni, nominal ÜDM-in 26%-ni, gəlirlərin 60-70%-ni təşkil etmişdirsə, Qazaxıstanda bu göstəricilər müvafiq olaraq 76%, 18% və 42% olub. Beynəlxalq aləmin ən mötəbər reytinqində Azərbaycan dünya ölkələrinin hər dördündən üçünü geridə qoyaraq, MDB-də liderliyini qoruyub. Azərbaycan hökuməti ilə Dünya Bankı arasında fəal tərəfdaşlıq, o cümlədən Dünya Bankının Azərbaycanda İqtisadi Artımın Bərpası Proqramı, iş yerlərinin diaqnosti-

kası, yoxsulluğun qiymətləndirilməsi çərçivəsində planlaşdırılan fəaliyyətlər zəruridir. Dünyada biznes mühitinin qiymətləndirilməsi istiqamətində ənənəvi olaraq hər il dərc olunan hesabatlarda Azərbaycanda reallaşdırılan iqtisadi islahatlar daim diqqət mərkəzində saxlanılır. Belə hesabatlardan biri də Dünya Bankı tərəfindən hazırlanaraq, biznes mühitinin əlverişliliyi üzrə qiymətləndirməni özündə əks etdirən "Doing Business -16" hesabatıdır. "Doing Business 2016" hesabatında Azərbaycan dünyada 3 və daha çox islahat aparan 24 ölkədən biri olub.

Hesabatda "Biznesə başlama" göstəricisi üzrə Azərbaycan biznesin qeydiyyatını sadələşdirməklə, dünyanın ilk onluğuna daxil olub və Almaniya, İsveç, Estoniya, Slovakiya ilə yanaşı, dünyada ən yaxşı təcrübəyə malik ölkə kimi qeyd olunub. Beləliklə, 2015-2016-cı illərin hesabatında Azərbaycan 140 ölkə arasında 40-cı yerə qalxmışdır və bəzi göstəricilər üzrə yaxşı nəticələr əldə edilmişdir. 2016-cı ilə nisbətən "Doing Business 2018"–ci il hesabatı Azərbaycanda "Kiçik investorların maraqlarının qorunması" göstəricisi üzrə 22 pillə irəliləyərək 10-cu pilləyə, "Əmlakın qeydiyyatı" göstəricisi üzrə 1 pillə irəliləyərək 21-ci pilləyə, "Vergilərin ödənişi" göstəricisi üzrə 5 pillə irəliləyərək 35-ci pilləyə, "Müqavilələrin icrasının təmin edilməsi" göstəricisi üzrə 6 pillə irəliləyərək 21-ci pilləyə, "Vergilərin ödənişi" göstəricisi üzrə 5 pillə irəliləyərək 35-ci pilləyə, "Müqavilələrin icrasının təmin edilməsi" göstəricisi üzrə 6 pillə irəliləyərək 38-ci pilləyə, "Müəssisənin bağlanması" göstəricisi üzrə 39 pillə irəliləyərək 47-ci pilləyə, "Elektrik təchizatı şəbəkələrinə qoşulma" göstəricisi üzrə 3 pillə irəliləyərək 102-ci pilləyə yüksəlmişdir və ilk 50 ölkənin sırasına daxil edilmişdir. Azərbaycan dünyanın ən yüksək iqtisadi artım tempinə malik ölkələrindən biri kimi, keyfiyyət etibarı ilə yeni mərhələyə qədəm qoymuşdur. Ölkədə həyata keçirilən siyasət iqtisadiyyatın həcminin əhəmiyyətli genişlənməsinə, əhalinin sosial rifahının yüksəldilməsinə, sosial–iqtisadi infrastrukturun tamamilə müasirləşdirilməsinə imkan vermişdir. Bu tədbirlərin davamı olaraq, növbəti dövrlərdə də iqtisadiyyatın neftdən asılılığının minimuma endirilməsi və sahibkarlığın inkişafına əsaslanan rəqabətqabiliyyətli milli iqtisadiyyata çevrilməsi, biznes və investisiya mühitinin daha da yaxşılaşdırılması əsas strateji hədəflərdən biri kimi müəyyən edilmişdir. Strateji Yol Xəritəsi kiçik və orta sahibkarlığda iqtisadi islahatların və inkişafın qısa, orta və uzunmüddətli perspektivdə əsas istiqamətlərini müəyyənləşdirir. Bu sənəd 2020-ci ilədək strateji baxışdan, 2025-ci ilədək olan dövr üçün uzunmüddətli baxışdan və 2025-ci ildən sonrakı dövr üçün hədəf baxışdan ibarətdir. Ölkədə iqtisadi fəallığı gücləndirmək, iqtisadiyyatda dövrün tələbinə uyğun olaraq zəruri struktur dəyişiklikləri aparmaq, sağlam rəqabət mühiti formalaşdırmaq və milli iqtisadiyyatın səmərəliliyini yüksəltmək məqsədilə dövlət əmlakının özəlləşdirilməsinin sürətləndirilməsi iqtisadi siyasətin mühüm istiqamətlərindən biridir.

Hər bir ölkədə dövlətçiliyin, müstəqilliyin daha da möhkəmləndirilməsi, gələcəyin etibarlı təminatı intellektual səviyyəli kadrların yetişdirilməsindən, gənclərin cəmiyyətin bütün sferalarında iştirakından, onların aparıcı qüvvəyə çevrilməsindən çox asılıdır. Güclü, yüksək ixtisaslı və innovativ işçi qüvvəsi Azərbaycanın mövqelərinin daha da möhkəmlənməsində mühüm rol oynayacaqdır. Bu gün Azərbaycan gənclərinin bütün sahələrdə özünü göstərməsi üçün onlara şərait yaradılması vacib məsələdir. Gənclərin inkişafı birmənalı olaraq dövlətin diqqətində olan məsələdir. Gənclər yalnız elm, mədəniyyət, ədəbiyyat, istehsalat sahəsində deyil, biznes və sahibkarlıqda özlərini göstərə bilirlər. Gənclərlə iş sahəsində görülən tədbirlər Azərbaycan gəncliyinin inkişafına təkan verir, onların cəmiyyətdə özlərini təsdiq etməsində böyük rol oynayır. Gəncliyin inkişafında növbəti mərhələnin təmin edilməsi məqsədilə "Azərbaycan gəncliyi 2011-2015-ci illərdə" Dövlət Proqramı təsdiq edilmişdir. Dövlət Proqramının əsas məqsədi ölkədə gənclər siyasətini daha da inkişaf etdirmək, gənclərin menecment sahəsində fəal iştirakına şərait yaratmaq, gənc mütəxəssislərin işlə təminatı və digər sosial-iqtisadi problemlərinin həllini təmin etməkdir.

Azərbaycanda qadın sahibkarlığının inkişaf etdirilməsi hazırda aktual məsələlərdən biridir. Sahibkarlığa Kömək Milli Fondunun (SKMF) vəsaiti hesabına 2017-ci ildə əhalinin həssas qruplarına, o cümlədən gənclərə, qadınlara, məcburi köçkünlərə kömək məqsədilə güzəştli kredit vəsaiti ayrılıb. Bu məqsədlə 265 gənc sahibkarlıq

subyektinə 30.8 milyon manat, 260 qadın sahibkarlıq subyektinə 6.4 milyon manat və 84 məcburi köçkün sahibkarlıq subyektinə1.3 milyon manat güzəştli kredit verilimişdir. Bu kreditlər hesabına 1933 yeni iş yerinin yaradılması imkanı yaranmışdır. Qadın sahibkarlığının inkişafı -yoxsulluğun azaldılmasına, məşğulluğun təmin edilməsinə və bir çox hallarda, cəmiyyətdə gender bərabərsizliyinin aradan qaldırılmasına kömək edir. Azərbaycanda qadınların sahibkarlıq fəaliyyəti ilə məşğul olmaları üçün daha əlverişli mühit yaradılacaq. Bu barədə Azərbaycan Prezidentinin 2016-cı il 6 dekabr tarixli fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında kiçik və orta sahibkarlıq səviyyəsində istehlak mallarının istehsalına dair Strateji Yol Xəritəsi"ndə bildirilir ki, qadın sahibkarlar üçün 2017-ci ildə kreditləşmə, vergitutma və digər güzəştləri nəzərdə tutan stimullaşdırıcı mexanizmlərin işlənib hazırlanması vacibdir və bu qadınların inkişafına güclü təkan verə bilər. Bu mexanizmlər Azərbaycanda qadınların iqtisadi təşəbbüskarlığının reallaşdırılması imkanlarını əhəmiyyətli dərəcədə artırmışdır. Mexanizmlər hazırlanan zaman, xüsusilə kənd yerlərində qadın məşğulluğu məsələsi diqqət mərkəzində olmuşdur. Kənd yerlərində qadın məşğulluğunun daha perspektivli istiqamətləri müəyyənləşdirilmiş və müvafiq tədbirlər görülmüşdür. Bundan əlavə, qadın sahibkarlığına dəstək məqsədilə xüsusi qadın biznes inkubatorlarının yaradılması nəzərdən keçirilir. İnkubatorların yaradılması və inkişafı qadınların sahibkarlıq təşəbbüsünün dəstəklənməsi, yeni biznes və məşğulluq imkanlarının yaradılması baxımından əhəmiyyətlidir və qadın sahibkarlığı sahəsinə investisiyaların cəlb olunması maliyyələşmə üçün əlavə imkanlar yaradacaq.

Sahibkarlığa Kömək Milli Fondu regionlarda, Bakı şəhəri, ətraf kənd və qəsəbələrində "Sahibkarlığın inkişafına dövlət dəstəyi" mövzusunda təşkil etdiyi tədbirlər çərçivəsində qadınların sahibkarlıq fəaliyyətinə cəlb olunması və xüsusilə evdar qadınların məşğulluğunun təmin edilməsi məqsədi ilə xalçaçılıq, tikişçilik və digər daha çox qadın əməyinə ehtiyac duyulan sahələrdə nümunəvi investisiya layihələri hazırlayır və onlara təqdim edir. Bu istiqamətdə təşviqat işlərinin aparılması öz səmərəsini verməklə yanaşı, qadınların bizneslə məşğul olmaq sahəsində lazımi bilik və informasiyanı əldə etmələrinə geniş imkanlar açır. "Sahibkarlıq sahəsində aparılan yoxlamaların dayandırılması haqqında" Azərbaycan Respublikası Qanununun 1-ci maddəsinə əsasən, sahibkarlıq sahəsində aparılan yoxlamalar 2021-ci il yanvarın 1-dək dayandırılmışdır.

2017-ci ildə qadın sahibkarlığının inkişafına töhfə vermək üçün qadın sahibkarlar assosiasiyalarının və peşə təşkilatlarının yaradılması təşviq edilmişdir. Ölkədə qadınların sahibkarlıq fəaliyyəti üçün daha əlverişli mühit yaranacaq, kiçik və orta sahibkarlar arasında qadınların sayı daha da artacaq. Bu fəaliyyətlər həmçinin məşğulluq göstəricilərində də qadınların payının artmasına müsbət təsir göstərəcək.

Ölkədə sahibkarlığın inkişafı məqsədilə biznes mühitinin daim yaxşılaşdırılması, bu sahədə qanunvericilik bazasının təkmilləşdirilməsi, yerli və xarici investisiyaların, müasir texnologiyaların, idarəetmə təcrübəsinin cəlb edilməsi və bu yolla yüksək keyfiyyətli, rəqabətqabiliyyətli məhsulların istehsal edilməsi iqtisadi inkişaf strategiyasının prioritetlərindəndir. Bu sahədə həyata keçirilən dövlət siyasəti, dövlət himayəsinin təkmilləşdirilməsinə, dövlət-sahibkar münasibətlərinin yaxşılaşdırılmasına, bazar iqtisadiyyatının tələblərinə uyğun təsisatların yaradılmasına və onların səmərəli fəaliyyətinin təmin edilməsinə yönəldiləcəkdir. Belə ki, dövlət proqramında qeyri-neft sektoru üzrə sahibkarlığın gələcək inkişafının aşağıdakı əsas vəzifələri müəyyənləşdirilməlidir:


- Sahibkarlıq fəaliyyətini və ona dövlətin dəstəyini tənzimləyən hüquqi normativ bazanın təkmilləşdirilməsi;
- Sahibkarlığın inkişafına yönəldilən maliyyə-kredit mexanizmlərinin inkişafı və maliyyə texnologiyalarının tətbiqi;
- Prioritet sahibkarlıq layihələrinin maliyyələşdirilməsi zamanı dövlət zəmanətlərinin verilməsi sisteminin təkmilləşdirilməsi;

Hazırda respublikada kiçik və orta sahibkarlığın inkişaf etdirilməsi diqqət mərkəzindədir. Kiçik və orta müəssisələrin yaradılması və onların daha da inkişaf etdirilməsi bazar iqtisadiyyatının zəruri şərtidir. Xüsusilə iqtisadi müstəqillik yoluna qədəm qoymuş Azərbaycan Respublikasında təsərrüfatın bütün sahələrini inkişaf et-

dirmək məqsədilə aparılan iqtisadi islahatlar kiçik müəssisələrin yaradılması işlərini daha da sürətləndirir. Kiçik müəssisələr əsasən istehsal olunan məhsulların həcminin azlığına və az sayda işçi heyətinə görə səciyyələnən və təsərrüfat şəraitinin çevik surətdə dəyişməsinə xidmət edən təsərrüfat vahidləridir.

Azərbaycanda 2025-ci ilədək olan dövr üzrə kiçik və orta sahibkarlığın ÜDM-də və məşğulluqda payının müvafiq olaraq 35 və 40 faizə, ölkənin qeyri-neft ixracında payının isə 25 faizə çatdırılması nəzərdə tutulur. Məqsəd Azərbaycanda ÜDM-in ən azı 60 faizinin kiçik və orta sahibkarlığın hesabına təmin edilməsinə, qlobal dəyər zəncirlərinə qoşulmuş yerli kiçik və orta sahibkarlıq şəbəkəsinin yaradılmasına nail olmaqdır. Kiçik və orta sahibkarlıq subyektlərinin sayının və dayanıqlılığının artması ilə onların qloballaşan sahələrdə inkişafının genişlənməsinə, intellektual dəyərlərin formalaşmasında iştirakına və daha çox gəlir əldə etməsinə nail olunacaqdır. Bu günə qədər sahibkarlıq subyektlərinin bölgüsü "işçilərin orta siyahı sayı" və "illik gəlir" göstəricilərinə görə müəyyənləşdirilib. İşçilərin orta siyahı sayı 25 nəfərədək, illik gəliri 200 min manatadək olan sahibkarlar kiçik, işçilərin orta siyahı sayı 25 nəfərdən 125 nəfərədək, illik gəliri 200 min manatdan 1.250 min manatadək olan sahibkarlar orta və işçilərin orta siyahı sayı 125 nəfər və ondan yuxarı, illik gəliri 1.250 min manatdan və ondan yuxarı olan sahibkarlar iri sahibkar olaraq müəyyən olunub.

Eyni zamanda bu sahibkarlıq fəaliyyətinin Respublikanın rayonları üzrə müəyyənləşdirilməsi çox əhəmiyyətli bir prosesdir. Bu prosesin sürətləndirilməsi nəticəsində ölkə özünün iqtisadi tələbatını ödəməklə yanaşı, ixracyönümlü məhsulların da istehsalına təkan verəcək. Qeyd edək ki, Azərbaycanda 2015-ci il üzrə qeydiyyatdan keçmiş hüquqi və fiziki sahibkarlıq subyektlərinin 1 faizi iri, 2 faizi orta, 97 faizi isə kiçik sahibkarlardır. Deməli, Azərbaycanda kiçik sahibkarlıqla məşğul olanların sayı daha çoxdur. Azərbaycanda kiçik və orta sahibkarlığın inkişafı üçün innovasiya infrastrukturu daha da təkmilləşdiriləcək, bu istiqamətdə xüsusi proqramlar hazırlanacaq və bu fəaliyyətin maliyyələşdirilməsi üçün investisiya güzəştləri tətbiq ediləcəkdir.




**$R^2$= 0,1**

Kiçik sahibkarlıq haqqında xarici ölkələrdə toplanmış təcrübədən istifadə edilməsi Azərbaycan iqtisadiyyatında onların geniş yayılmasına müsbət təsir göstərə bilər. Digər tərəfdən, bazar iqtisadiyyatı şəraitində istehsalı tez mənimsəmək, yeni mütərəqqi texnika tətbiq etmək, çevik texnologiyaya malik olmaq və sərf edilən xərcləri qısa vaxt ərzində ödəyib mənfəət (gəlir) qazanmaq funksiyası müəyyən dövrə qədər kiçik və orta müəssisələrin öhdəsinə düşür.

Məqalədə Azərbaycanda 2007-2017- ci ilin statistik göstəriciləri əsasında ÜDM və kiçik sahibkarlıq subyektlərinin sayı arasında korrelyasiya əlaqəsi araşdırılmışdır. Alınan nəticəyə görə bu iki göstərici arasında müsbət zəif korrelyasiya əlaqəsi vardır. Ona görə də kiçik və orta tipli müəssisələrin inkişaf miqyasının genişləndirilməsi real bazarın mövcudluğunun zəruri subyektləri sayılır. Bu inkişafın davamlılığının təmin edilməsi, dünya iqtisadiyyatına inteqrasiya

prosesində ölkə iqtisadiyyatının rəqabətqabiliyyətliliyinin artırılması və ölkənin uzunmüddətli inkişaf strategiyasına uyğun olaraq qeyri-neft sahələrinin daha da inkişaf etdirilməsi məqsədilə müvafiq tədbirlər davam etdiriləcəkdir. Bazarın ən mühüm atributu rəqabətdir. Rəqabət mexanizminin pozulması, ayrı-ayrı sahələrdə bir sıra mənfi nəticələrə gətirib çıxarır. Kiçik müəssisələrin inkişafı eyni adlı məhsul istehsalçılarının sayını artırmaqla, rəqabəti təmin edir. İqtisadiyyatın inkişafı sayəsində kiçik və orta sahibkarlıq istehlakçıların sürətlə dəyişən tələblərini tez təmin edə bilir. İri korporasiyalara nisbətən, kiçik müəssisələr yüksək mobilliyə və çevikliyə malikdirlər. Bazar konyukturasının dəyişilməsindən asılı olaraq, xırda istehsalçılar ciddi ziyan çəkmədən istehlakçının tələblərinə uyğunlaşa bilirlər. Onlar bazar tələblərinə operativ reaksiya verir, tələbdə olan cüzi dəyişiklikləri belə hiss edir, nəinki eyni sahə daxilində istehsalını sürətlə yenidən qura bilir, hətta bir sahədən digərinə "ağrısız" keçməyə qəbul olunurlar. Bu xüsusiyyət rəqabət mübarizəsinin kəskinləşdiyi, sənayenin sahə strukturunun daima dəyişdiyi müasir şəraitdə iri müəssisələrə nisbətən xırda müəssisələrin inkişafına təkan verir. Kiçik müəssisələr yeni ixtira və kəşflərin texnoloji yeniliklərin (innovasiyaların) istehsala tətbiqində mühüm rol oynayır. Yeni ideyalar, ixtiralar, hər cür yeniliklər mövcud kiçik şirkətlər və ya xüsusi olaraq konkret məqsədlə yaradılan kiçik müəssisələr tərəfindən düşünülüb həyata keçirilir. İqtisadiyyatın inkişafı sayəsində kiçik müəssisələrin fəaliyyəti üzrə dünya bazarında rəqabətqabiliyyətli olan altsahələrin inkişafı, həmçinin müqayisəli üstünlüklərə malik olan kiçik və orta sahibkarlıq məhsullarının istehsalının stimullaşdırılması istiqamətində dövlət dəstəyi gücləndirilmişdir. Özəl sektorun iştirakı ilə son məhsul istehsalına qədər texnoloji zəncir kiçik müəssisələrin ixrac potensialını gücləndirəcəkdir.

## NƏTİCƏ

Azərbaycan Respublikasında iqtisadiyyatın davamlı və rəqabətqabiliyyətli inkişafı sahəsində uzunmüddətli və sistemli fəaliyyət həyata keçirilir. Aparılan davamlı iqtisadi islahatlar və iqtisadiyyatın diversifikasiyası siyasəti nəticəsində kiçik və orta sahibkarlıq sahələrinin inkişafı təmin edilmiş, bu sahədə əhəmiyyətli irəliləyişlərə nail olunmuşdur. Nəticədə geniş sahibkarlar təbəqəsi formalaşmış, ölkənin sosial-iqtisadi inkişafında özəl sektorun rolu daha da artmış və ümumdünya iqtisadi sisteminə inteqrasiya sahəsində mühüm nailiyyətlər əldə olunmuşdur. Davamlı iqtisadi islahatlar çərçivəsində bu siyasət qlobal iqtisadi çağırışlara uyğun müasir konseptual yanaşmalarla daha da təkmilləşdirilmiş, strateji məqsədlərə uyğun sərbəst bazar münasibətlərinin və özünüinkişaf qabiliyyətinə malik sosialyönümlü, diversifikasiya olunmuş milli iqtisadiyyatın formalaşdırılması təmin edilmişdir. Həyata keçirilən məqsədyönlü tədbirlər nəticəsində makroiqtisadi sabitlik qorunub saxlanılmış, kiçik və orta sahibkarlıq sahələrinin və bütövlükdə regionların tarazlı inkişafı sürətlənmiş, strateji valyuta ehtiyatlarından səmərəli istifadə təmin olunmuş, sahibkarlığa dövlət dəstəyi gücləndirilmiş, əlverişli biznes və investisiya mühiti formalaşmış, əhalinin sosial rifahı davamlı olaraq yaxşılaşmışdır.

Ölkə iqtisadiyyatının neftdən asılılığının minimuma endirilməsi və sahibkarlığın inkişafına əsaslanan rəqabətqabiliyyətli milli iqtisadiyyata çevrilməsi, biznes və investisiya mühitinin daha da yaxşılaşdırılması istiqamətində tədbirləri davam etdirmək əsas strateji hədəflərdən biri kimi müəyyən edilmişdir. Azərbaycanda biznes və investisiya mühitinin əlverişliliyinin, yerli və xarici investorlar üçün cəlbediciliyinin daha da artırılması, rəqabətqabiliyyətliliyinin möhkəmləndirilməsi öz müsbət rolunu oynayacaqdır ki, bu da öz növbəsində kiçik sahibkarlıq sahəsi üzrə davamlı dövlət siyasətinin tərkib hissəsi olaraq qiymətləndirilə bilər.

## ƏDƏBİYYAT SİYAHISI:

1. Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi
2. İsayev S.Z., Tanrıverdiyev S.M., İqtisadi hüquq., Bakı ,2013
3. Əhmədov M., A.Hüseyn, İqtisadiyyatın dövlət tənzimlənməsinin əsasları, Bakı-2011
4. "Kiçik sahibkarlığa dövlət köməyi haqqında" Azərbyacan Respublikası Qanunu - Sahibkarlığa Kömək Milli Fondu- SKMF (jurnal)
5. Manafov Q.N. Sahibkarlıq fəaliyyətinin sosial-iqtisadi aspektləri, Bakı, 2000
6. İmanov Ə.Ş. Kiçik sahibkarlıq. Bakı 2009

**Наджафова Т. Р.**

## Вопросы укрепления государственной поддержки развития малого предпринимательства в рыночной экономике Азербайджанской Республики

**Резюме**

В статье рассматривается и оценивается текущее состояние развития малого предпринимательства, а также экономические механизмы и основные направления государственной поддержки предпринимательства. Автор указывает, что одновременно основное внимание в стране уделяется улучшению бизнес-среды, привлечению местных и иностранных инвестиций для производства высококачественных конкурентоспособных продуктов с применением современной технологии.В статье проанализированы процессы в сфере малого предпринимательства в Азербайджане.

**Ключевые слова:** *предпринимательство, экономическая политика, инвестиции, направления развития, конкуренция, рыночная экономика*

**Najafova T.R.**

## In the conditions of the market economy, the Republic of Azerbaijan increases the state assistance to small business development

**Abstract**

The article examines and assesses the current state of small business development, as well as economic mechanisms and the main directions of state support for entrepreneurship. At the same time, the country focuses on improving the business environment, attracting local and foreign investment to produce high-quality competitive products using modern technology. The article analyzes the processes in the sphere of small business in Azerbaijan.

**Key words:** *entrepreneurship, economic policy, investment, development trends, competition, market economy.*

**Daxil olub:** 17.05.2018
**Rəy verib:** i.ü.f.d. *Zeynalov M. H.*